## ƏDƏBİYYAT/REFERENCES

1. Aşıq Ələsgər (2004). Əsərləri. – Bakı: "Şərq-Qərb". − 440 s.

2. Füzuli, M. (2005). Əsərləri. Altı cilddə. II cild.− Bakı: "Şərq-Qərb". − 336 s.

3. Hinz, W. (1992). Uzun Hasan ve Şeyh Cüneyt. XV yüzyılda İranın milli bir devlet haline yükselişi. Çeviren: Tevfik Bıyıklıoğlu. Türk Tarih Kurumu Basımevi. 2. Baskı. – Ankara, − 165 s.

4. Nəsimi (2004). Seçilmiş əsərləri. İki cilddə, II cild. "− Bakı: "Lider nəşriyyat". − 376 s.

5. Kuran-i Kerim meali (2011). Hazırlayanlar: Doç. Dr. Halil Altunbaş – Muzaffer Şahin. – Ankara: Baskı: Yenigün Matbaacılık San. Tic. Ltd. Şti. – 705 s.

6. Melikoff, İ. (2010). Hacı Bektaş: Efsaneden gerçeğe. Çeviri: Turan Alptekin.– İstanbul: Yeni Gün Haber Ajansı Basın ve Yayıncılık A.Ş. − 443 s.

7. Melikoff, İ. (1993). Uyur idik uyardılar. Alevi-Bektaşilik araştırmaları. Türkçesi Turan Alptekin. − İstanbul: CEM YAYINEVİ. − 288 s.

8. Murtezaoğlu, C. (2011). Yarizm. Ehl-i Hak Alevilerin Yirmi Dört Ulu Ereni. − Ankara: Yurt Kitap-Yayın. − 313 s.

9. Musalı, N. (2013). Rus Oryantalistlere göre Ehl-i Haklar. 1. Baskı. − İstanbul, Nisan Önsöz Yayıncılık. − 512 s.

10. Pirsultanlı, S.P. (2010). Azərbaycan aşıq yaradıclığına dair araşdırmalar. – Bakı: "Azərnəşr". – 260 s.

11. Qurbani (1990). Tərtibçi, ön söz, qeyd və izahların müəllifi prof. Q. Kazımov. – Bakı: Bakı Universiteti Nəşriyyatı. − 280 s.

12. Rəhimov, V. (2022). Səfəvilər dövründə təşəkkül tapmış "Şah Xətai" muğam guşəsinin mahiyyətinə dair // "Konservatoriya" elmi nəşr. − № 2 (55), − 112 s.

13. Rıhtım, M. (2013). Seyid Yəhya Bakuvi (həyatı, yaradıcılığı və məktəbi). – Bakı: "Elm və Təhsil". − 216 s.

14. Xətai, Ş.İ. (2004). Divanı., − Tehran: ALHODA PUBLISHERS. − 542 s.

15. Xətayi, Ş.İ. (2005). Əsərləri. – Bakı: "Şərq-Qərb". − 384 s.

16. Xətayi, Ş.İ. (1988). Keçmə namərd körpüsündən. Şeirlər və poemalar. − Bakı, "Yazıçı". − 344 səh.

17. Taşğın, A. (2010). Yedi Ulu Ozanlar arasında Fuzuli. Canını Cananına Feda Eden Ozan Fuzuli. Hazırlayanlar: Gülağ Öz – Hayrettin İvgin. − Ankara Yol Bilim Kültür Araşdırma Yayınları: 16. − 368 s.

**Məqalə tarixçəsi**

*Daxil olub* 26.02.2026
*Düzəlişə göndərilib* 02.03.2026
*Qəbul edilib* 16.03.2026
*Nəşrə tövsiyə edib* *Muxtar İmanov*
*filologiya elmləri doktoru, professor*

*https://doi.org/10.30546/114578.2026.3015.274*

# POSTSTALİNİZM DÖVRÜ AZƏRBAYCAN NƏSRİ VƏ DRAMATURGİYASINDA MİLLİ ÖZÜNÜDƏRK MOTİVLƏRİ

**Səbuhi Qəhrəmanov**
*Azərbaycan Dillər Universiteti*
*https://ORCID.org/0009-0008-9817-0409*
*gahramanovsabuhi@gmail.com*

**Xülasə**

Məqalədə poststalinizm dövrü Azərbaycan nəsri və dramaturgiyasında milli özünüdərkə rəvac verən bir sıra motivlər – maarifçilik hərəkatı, milliləşmə prosesləri, sovet dövrü Azərbaycan həqiqətlərinin inikası yeni baxış və bədii ifadə xüsusiyyətləri baxımından elmi təhlilə cəlb olunur. 1950-ci illərdən etibarən sovet ictimai-siyasi mühitində baş verən mülayimləşmə prosesləri ədəbiyyatda yeni estetik və ideoloji meyillərin formalaşmasına şərait yaratmışdır. Bu mərhələdə ədəbiyyat sovet konsepsiyasının çərçivələrini aşaraq milli yaddaşın bərpasına, tarixi həqiqətlərin ideoloji təhriflərdən təmizlənməsinə və azərbaycançılıq məfkurəsinin bədii əsaslarının möhkəmləndirilməsinə yönəlmişdir.

Araşdırmada Mir Cəlal, İsmayıl Şıxlı, Anar, İsa Hüseynov, Hüseyn Abbaszadə və başqa müəlliflərin əsərləri təhlil edilərək maarifçilik ideyalarının reaktualizasiyası, milliləşmə proseslərinin bədii interpretasiyası və II Dünya müharibəsi həqiqətlərinin milli prizma altında təqdim olunması məsələləri nəzərdən keçirilir. Göstərilir ki, poststalinizm dövrü nəsr və dramaturgiyası sinfi ideologiyanın stereotiplərindən uzaqlaşaraq milli tarixin dramatik mərhələlərinə obyektiv yanaşma ortaya qoymuş, xalqın öz taleyinə münasibətdə tarixi özünüdərki şüurlu şəkildə formalaşdırmasına zəmin yaratmışdır. 1960–1980-ci illər Azərbaycan ədəbiyyatı milli özünüdərk proseslərinin güclənməsində, azərbaycançılıq məfkurəsinin ədəbi-estetik sistem kimi təşəkkül tapmasında mühüm rol oynamışdır.

**Açar sözlər:** poststalinizm dövrü, Azərbaycan nəsri, dramaturgiya, maarifçilik hərəkatı, milli özünüdərk, azərbaycançılıq.

# MOTIFS OF NATIONAL SELF-AWARENESS IN AZERBAIJANI PROSE AND DRAMATURGY AT THE POST-STALINIST PERIOD

**Sabuhi Gahramanov**
*Azerbaijan University of Languages*

**Abstract**

A number of motifs that contributed to the emergence of national self-awareness in Azerbaijani prose and dramaturgy of the post-Stalinist period such as the enlightenment movement, processes of nationalization and the reflection of Azerbaijani realities during the Soviet period − are subjected to scholarly analysis from new perspectives and in terms of literary expression. The processes of liberalization that took place in the Soviet socio-political environment since the 1950s created conditions for the formation of new aesthetic and ideological tendencies in literature. At this stage, literature went beyond the framework of the Soviet concept and was aimed at restoring national memory, cleansing historical truths from ideological distortions and strengthening the artistic foundations of the ideology of Azerbaijanism.

The study analyzes the works of Mir Jalal, Ismayil Shikhli, Anar, Isa Huseynov, Huseyn Abbaszadeh and other authors and examines the issues of reactualization of enlightenment ideas, literary interpretation of nationalization processes and presentation of the realities of World War II under a national prism. It is shown that the prose and dramaturgy of the post-Stalinist period, moving away from the stereotypes of class ideology, presented an objective approach to the dramatic stages of national history and created the basis for the people to consciously form historical self-awareness in relation to their own destiny. Azerbaijani literature of the 1960s–1980s played an important role in strengthening the processes of national self-awareness and in the formation of the ideology of Azerbaijanism as a literary and aesthetic system.

**Key words:** Post-Stalinist period, Azerbaijani prose, dramaturgy, enlightenment movement, national self-awareness, Azerbaijanism.

## МОТИВЫ НАЦИОНАЛЬНОГО САМОСОЗНАНИЯ В АЗЕРБАЙДЖАНСКОЙ ДРАМАТУРГИИ И ПРОЗЕ ПОСТСТАЛИНСКОГО ПЕРИОДА

**Сабухи Кахраманов**
*Азербайджанский университет языков*

**Резюме**

В статье рассматриваются и анализируются ряд мотивов, давших толчок и способствовавших развитию национального самосознания в азербайджанской драматургии и прозе – таких как просветительская деятельность, процессы национализации, отражение реалий Азербайджана в советской период – сквозь призму нового взгляда и особенностей художественного воплощения.

Начиная с 1950-х гг., процессы оттепели, имеющие место в советской социально-политической среде, явились условием для формирования новых эстетических и идеологических ценностей в литературе.

На данном этапе появилась направленность усиления художественной основы идеологии азербайджанизма путем преодоления рамок советской концепции, восстановления национальной памяти, очищения от идеологических искажений исторической действительности.

В исследовании анализируются произведения Мир Джалала, Исмаила Шыхлы, Анара, Исы Гусейнова и других, где глубоко рассматриваются вопросы реализации просветительских идей, художественной интерпретации процессов научного познания и реалий Второй мировой войны сквозь национальную призму.

Показано, что в постсталинский период в прозе и драматургии, отступая от стереотипов классовой идеологии, был представлен объективный подход к драматическим этапам истории народа, что и создало основу для сознательного осмысления им своей исторической предопределенности.

Азербайджанская литература 1960-1990-х гг. сыграла значимую роль в усилении процессов национального самосознания, а также формирования идеологии азербайджанизма как литературно-эстетической системы.

**Ключевые слова:** постсталинский период, азербайджанская проза, драматургия, просветительская деятельность, национальное самосознание, азербайджанизм.

## Giriş/Introduction

XX əsrin ortaları poststalinizm dövründə sovet ictimai-siyasi mühitində mülayimləşmə prosesləri Azərbaycan bədii nəsri və dramaturgiyasının mövzu və problematikasının dəyişməsinə, müasir həyatla yanaşı, tarixin mürəkkəb və ziddiyyətli mərhələlərinin yenidən dəyərləndirilməsinə səbəb oldu. Ədəbiyyat

ideologiyanın şablon təsvirindən uzaqlaşaraq maarifçilik hərəkatına, milliləşmə proseslərinə, kollektivləşmə siyasətinin acı nəticələrinə, II Dünya müharibəsinin sərt gerçəkliklərinə və bütövlükdə milli həyatın son ikiəsrlik taleyinə analitik-tənqidi baxış yönəltdi.

Poststalinizm mərhələsində Azərbaycan nəsri və dramaturgiyası oxucuya tarixi həqiqətlərin ideoloji təhriflərdən təmizlənməsi və milli özünüdərk proseslərinin intensivləşməsi istiqamətində mühüm mesajlar ötürdü. Mir Cəlalın "Yolumuz hayanadır?" (1957), İsmayıl Şıxlının "Dəli Kür" (1957-1967), Mirzə İbrahimovun "Közərən ocaqlar" (1967) və "Pərvanə" (1971), Anarın "Sizi deyib gəlmişəm" (1967), İlyas Əfəndiyevin "Mahnı dağlarda qaldı" (1970), Fərman Kərimzadənin "Qarlı aşırım" (1971), Yusif Səmədoğlunun "Qətl günü" (1981-1984), Çingiz Hüseynovun "Fətəli fəthi" (1986), Rüstəm İbrahimbəyovun "Ultimatum" (1983), Elçinin "Ölüm hökmü" (1984–1988), İsa Hüseynovun "Tütək səsi" (1965), "Saz" (1971), Maqsud İbrahimbəyovun "Müharibənin 1001 gecəsi" (1967) və s. əsərlər Azərbaycanın yaxın tarixini yeni müstəvidə dəyərləndirməyə imkan verdi.

Tarixi proseslər buna qədərki ədəbiyyatda sinfilik və sosializmin qələbəsi mövqeyindən təqdim olunsa da, artıq bu dövrdə milli həyatın gerçəkləri prizmasından qələmə alınmağa başladı. Bununla da Azərbaycanın dramatizm və faciələrlə dolu taleyi ədəbiyyatda daha dolğun və obyektiv bədii ifadəsini tapdı. Maarifçilik hərəkatının ideya qaynaqları, müharibə illərinin qəhrəmanlıq və faciə qatları, eləcə də repressiya mühitinin insan talelərində yaratdığı sarsıntılar poststalinizm dövrü ədəbiyyatında milli özünüdərk prosesini əks etdirdi.

Beləliklə, poststalinizm dövrü Azərbaycan nəsri və dramaturgiyası maarifçilik ideyalarının yenidən qiymətləndirilməsi və müharibə həqiqətlərinin millilik kontekstində bədii interpretasiyası ilə azərbaycançılıq məfkurəsinin əsaslarını möhkəmləndirdi. Bu dövr ədəbiyyatı tarixi həqiqətlərin sənət müstəvisində bərpasına xidmət edən mühüm mərhələ kimi səciyyələndirilə bilər.

**Maarifçilik ideyaları kontekstində milli özünüdərkin bədii təcəssümü.** Mir Cəlal "Yolumuz hayanadır?" romanında [Paşayev, 2008] böyük Azərbaycan şairi Mirzə Ələkbər Sabirin həyatı və mübarizəsi fonunda ümumən XX əsrin əvvəllərində milli həyatda baş verən prosesləri izləyir, reallıqda və xalqın ictimai-siyasi şüurunda gedən inqilabi dəyişiklikləri əks etdirir. Maarifçilik hərəkatının real nəticələri, milli burjuaziya sinfinin oyanışı ölkədə milliyyətçi ziyalılar ordusu yetirmiş, ideya cərəyanları yaratmışdı. Azərbaycanın gələcək taleyi məsələsi, milli xilas yolu hansıdır? – sualı romanda birbaşa ritorik şəkildə

qoyulmur, müxtəlif obrazların simasında təcəssüm olunur. Mirzə Ələkbər Sabir və həmməsləkləri maarifçiliyi təmsil edir: *"Mən də oxumuşlarımıza məsləhət görürəm ki, şəhərdə, kənddə hərəsi beş nəfər savadsızı öyrədib gözünü açsınlar, xalq maariflənsə tərəqqi hürriyyət yolunu mənsiz-sənsiz də tapar və bu yolda daha cürətlə gedər"...* [Paşayev, 2008:214].

Əlibəy Hüseynzadə obrazının romana daxil edilməsi milliyyətçilik hərəkatına diqqət çəkir; Əlibəy millətin istiqlalını dinin siyasi-coğrafi areala ölçülməsində yox, əsl mahiyyətinə yiyələnməsində, islam hümmətinin dirçəlməsində görür. Daha bir xətti isə sosial demokratiyanı təmsil edən Nəriman Nərimanov obrazı ifadə edir; onun fəhlə və kasıblar sinfinə arxalanması romanda başlıca qayəni təşkil etsə də, bütövlükdə yazıçı azərbaycançılıq məfkurəsini bütün tərəfləri ilə təqdim etməyə nail olur. O zaman üçün bu cəsarətli bir addım idi və ədəbiyyatda yeni tendensiyalara yol açırdı.

İsmayıl Şıxlının "Dəli Kür" (1957-1967) romanında da milli həyatın maarifçilik dövrünün əhatəli təsviri əksini tapmışdır. "*Dəli Kür" nəsrimizin ilk nümunələrindən idi ki, əsərdə sosializm realizminin tüğyan etdiyi bir vaxtda müəllif sovet ədəbiyyatının aparıcı istiqamətini təşkil edən partiyalılıq, sinfilik yolundan çıxaraq, sözün həqiqi mənasında əsl xəlqilik, millilik kateqoriyasına əsaslanan mənəvi dəyərlərə üstünlük verilmişdir*" [AƏT, 2025:596]. Hadisələr XIX əsrin ikinci yarısında – Qori seminariyasının fəaliyyətə başlaması dövründə cərəyan edir. Romanda bir xətt birbaşa bu mövzu ilə bağlanır. Kənd-kənd gəzib seminariyada açılmış Azərbaycan bölməsi üçün şagird toplayan məşhur pedaqoq, "Vətən dili" dərsliyinin müəllifi Aleksey Osipoviç Çernyayevskinin Göytəpə kəndinə gəlişi – bu kəndin timsalında bütünlükdə zəmanənin xarakterini, milli həyatın roman mənzərələrini göstərməyə vəsilə olur. Roman XIX əsrdə rus işğalında olan Azərbaycanın obyektiv mənzərəsini həm baş verən hadisələr, həm də əsas obrazlar vasitəsilə təqdim edir. Tədqiqatçılar bir qayda olaraq, romanda patriarxal durumda olan Azərbaycanın taleyindən bəhs olunduğunu göstərirlər. *"İ.Şıxlıya görə, milli cəmiyyətin hazırkı durumu kök etibarilə yüz-yüz əlli il öncəyə gedir, bu müddətdə milli cəmiyyət bütöv bir sıra sarsıntı keçirir, ictimai-siyasi, mədəni-tarixi proseslərin təsiri ilə habelə daxilən patriarxal məzmununu itirməyə başlayır"* [Əlişanoğlu, 2006:257]. Əsərdə müxtəlif obrazlar – Cahandar ağa və onun ailəsi, Molla Sadıq və onun əhatəsi, Rus Əhməd və onun fəaliyyəti vasitəsilə Azərbaycan cəmiyyətinin ictimai-siyasi və mental durumu süzgəcdən keçirilir, tarixi həqiqətlərin real, obyektiv mənzərəsi yaradılır.

Romanın Azərbaycanın Rusiyaya ilhaqının (1813-1963) 150 illiyi ərəfəsində meydana gəlməsi azərbaycançılıq nöqteyi-nəzərindən önəmini bir daha artırır. Rəsmi sovet ideologiyası bu hadisəni Azərbaycan xanlıqlarının işğalı faktı kimi yox, 1964-cü ildə partiya qərarı ilə Rusiyaya könüllü birləşmə kimi qələmə verməyə çalışırdı. Dövrün tədqiqatçısı Rəhim Əliyev yazır: *"Qafqaz fasiləsiz üsyan və qiyamlarla rus müstəmləkəsinə müqavimət göstərdiyi halda rəsmi çar-bolşevik təbliğatı Qafqazın Rusiyaya könüllü daxil olduğu barədə uydurma tarixçilik düzəltmişlər"* [Əliyev, 2024:35].

"Dəli Kür" romanındakı hadisələr də Azərbaycanın müstəmləkə şəraitində yaşadığını təsdiq edirdi. Təyyar Salamoğlu əsərə yeni baxış tərzini ifadə edən "İsmayıl Şıxlının bədii nəsri" monoqrafiyasında göstərir ki: *"Çarizmin Göytəpə kəndinə və bu kəndin sakinlərinə münasibəti bütövlükdə Azərbaycana və Azərbaycan xalqına münasibət kimi mənalanır. Göytəpə kəndi mikromühit olaraq makromühiti – Azərbaycanı simvollaşdırır"* [Salamoğlu, 2014:88].

Çar hökumətinin müsəlman təbəəsini də təhsilə cəlb etməsi isə yerlərdə öz dayaqlarını yaratmaq, məmur sistemini formalaşdırmaq üçün idi. Əsərdə Qori seminariyasında Azərbaycan şöbəsinin açılmasının özü mübahisələrlə müşayiət olunur: *"Bir də unutmayın ki, Qafqaz müsəlmanları da böyük rus imperiyasının təbəələridir. Atamız çarın təbəələri arasında ayrı-seçkilik salmaq özü qəbahətdir. Bizim borcumuz onların savadlanmasına kömək etməkdir.*

*– Onların rus-tatar məktəblərində oxumaları kifayətdir. Yerlilərdən müəllim hazırlamağa nə ehtiyac var?!*

*– Bəs həmin məktəblərdə kim dərs deyəcək?.."* [Şıxlı, 2005:114]. Rus çarının özünə xidmət edən məmurlar hazırlamaq niyyəti ilə təbəələrinin savadlanması üçün verdiyi fərmandan bunun əksinə olaraq yerli xalqlar öz xeyirlərinə yararlanırdılar.

Bu baxımdan romanda mövcud vəziyyəti simvollaşdıran bir neçə ideoloji xətt təcəssüm olunmuşdur. Çernyayevski – Rus Əhməd xətti millətin tərəqqisi üçün dünyəvi təhsili, savadlanmağı, müasir dünyagörüşünün formalaşdırılmasını təmsil və təbliğ edir. Buna qarşı duran Molla Sadıq köhnəliyi, dini təhsili, ənənəvi mollaxana-mədrəsə sistemini kifayət bilir. İki qarşı-qarşıya duran, az qala ölümlə nəticələnən mübarizənin əsas hakimi isə Cahandar ağanın timsalında patriarxal cəmiyyətdir. Cahandar ağa köhnə cəmiyyətin ömrünü başa vurmasını görsə də, bu cəmiyyətin bir parçasıdır, bütün mental cəhətləri ilə onu təmsil edir. Təsadüfi deyil ki, Cahandar ağa torpaqlarını əlindən alan çar hökumətinə tabe olmur, kazaklarla vuruşda həlak olur. O da təsadüfi deyil ki, zəmanənin

dəyişdiyini görən Cahandar ağa kiçik oğlu Əşrəfi Qoriyə oxumağa göndərir. Beləliklə, "Dəli Kür" romanında da yolların haçalandığını görürük. Böyük oğlu Şamxal atasının yolu ilə gedərək, mülkədar olur. Əşrəf isə maarifçilik yolunu tutaraq, milli ziyalılar zümrəsini təmsil edir.

Anarın Cəlil Məmmədquluzadəyə həsr etdiyi "Sizi deyib gəlmişəm" (1967) əsəri [Anar, 1968] də maarifçilik epoxasından bəhs edir və mahiyyətcə maarifçi xarakter daşıyır. Adından da göründüyü kimi, C.Məmmədquluzadənin "Molla Nəsrəddin" jurnalında xalqa etdiyi müraciəti Anar həm də müasirlərinə yönəltməklə, millət tarixinin ən aktual, taleyüklü problemlərini səhnəyə çıxarır. Sənədli dramatik povest kimi yazılmış əsər həm ideyası, həm də bədii ifadə forması baxımından orijinal olmaqla oxucularda maraq oyadırdı. Remarkaları çıxmaqla povestin mətni, personajların nitqi bütünlükdə Cəlil Məmməd-quluzadənin əsərlərindən, "Molla Nəsrəddin" jurnalının materiallarından, Mirzə Cəlil haqqında deyilənlərdən götürülmüşdür. Bu üsulla əslində yazıçı oxucunu tarixlə üz-üzə gətirir, ona milli həqiqətləri aşılayırdı.

Əsərdə obrazlar Mirzə Cəlil, Həmidə xanım olmaqla, digər surətlər şərti olaraq birinci, ikinci, üçüncü, dördüncü aktyor deyə müxtəlif tarixi şəxsiyyətlərin – C.Məmmədquluzadənin qələm yoldaşlarının timsalında görünürlər. Təsadüfi deyil ki, Anar əsəri daha sonra "Qəm pəncərəsi" (1976) adı ilə sənədli telepyes [Anar, 1977] kimi yenidən işləmiş, tarixi obrazları – Sabir, Şahtaxtlı, Ömər Faiq, Lağlağı, Mozalan, Hərdəmxəyal və s. adlarla konkretləşdirmişdir. Bu, oxucunun və tamaşaçının əsrin əvvəllərinin ictimai-siyasi və ədəbi mühitini tarixi panoram şəklində görməsinə imkan yaradırdı. "Sizi deyib gəlmişəm" (1980) əsərinə bir daha qayıdan Anar onu səhnə üçün ikihissəli pyes [Anar, 1984] kimi təkmilləşdirir, tarixi surətlərlə yanaşı, Cəlil Məmmədquluzadənin əsərlərindən ədəbi personajları da pyesə daxil edir.

"Sizi deyib gəlmişəm" əsərinin finalı Cəlil Məmmədquluzadənin Azərbaycançılıq ideologiyasının ilk açıq manifestlərindən sayılan "Azərbaycan" məqaləsindən (1917) "Ax, unudulmuş vətən, ax yazıq vətən!" sözləri ilə başlayan geniş sitatla tamamlanırdı. Mirzə Cəlilin dilindən səslənən bu çağırış ruhlu monoloqda: *"Haradır Azərbaycan? Azərbaycanın çox hissəsi İrandadır ki, mərkəzi ibarət olsun Təbriz şəhərindən; qalan hissələri də Gilandan tutub qədim Rusiya hökumətilə Osmanlı hökuməti daxilindədir ki, bizim Qafqazın böyük parçası ilə Osmanlı Kürdüstanından və Bəyaziddən ibarət olsun. Ax, gözəl Azərbaycan vətənim! Harda qalmısan?.."* [Anar, 1968:114-115] kimi fikirlər yer alırdı. Final səhnəsinin əsərin müxtəlif versiyalarında müəyyən ixtisarlarla

dəyişməsi Azərbaycançılıq məfkurəsinin ədəbiyyatda tədricən güclənməsi və daha gur səsləndiyini təsdiq edir.

Əsərin ilk versiyasında finalda *"Lövhədə 1917. OKTYABR və 1920 APREL sözləri görünür..."* [Anar, 1968:115] və mətn Mirzə Cəlilin *"O şey ki, qoca Molla Nəsrəddinin qəlbinə və məzağına hər babətdən müvafiqdir – onun adı Şuradır. Şura üsuli-idarəsi! Şükr eləyirəm vicdanıma ki, ölmədim və arzu etdiklərimə çatdım!"* [Anar, 1968:115] sözləri ilə bitir. "Qəm pəncərəsi" tele-pyesində final eynilə saxlansa da, artıq "1917. OKTYABR" sözləri ixtisar olunmuşdur. Hər iki variantda *"senzura kağızlarının ləğvi"* [1, s. 399] vurğulansa da, müəllifin hələ sovet senzurası və sosrealizmin tələblərinə əməl etdiyini görürük. 1980-ci il variantında Anar finalı tamamən dəyişir və pyes Cənubi və Şimali Azərbaycanın birliyini ifadə edən monoloqla sona yetir: *"Ax unudulmuş vətən! Gəlin, gəlin ey unudulmuş vətənin cırıq-mırıq qardaşları! Gəlin, görək beşikdə yad millətlərin südünü əmmiş, vətənimizdən yadırğamış və millətimizin ruhundan xəbərsiz bir para millət başçılarımız sizə nə gün ağlayacaqlar? Niyə sakitsiniz, ey mənim lüt-üryan qardaşlarım? Sizi deyib gəlmişəm! Sizi deyib gəlmişəm!"* [Anar, 1984:245] Hər iki Azərbaycanda, əsrin əvvəlində olduğu kimi, özgə ideologiyaya uğramış vətənin xilasını Anar Mirzə Cəlilin dili ilə milli məfkurəyə, azərbaycançılığa qayıtmaqda görürdü.

Beləliklə, nəzərdən keçirdiyimiz əsərlərin nümunəsində görürük ki, maarifçilik dövrünün bədii nəsrdə və dramaturgiyada inikası milli tarixin yaxın keçmişinə dair rəsmi ideologiyanın yaratmaq istədiyi Azərbaycanın Rusiyaya könüllü birləşməsi, Rusiyanın Azərbaycanda mədəniləşdirici rol oynaması, onu gerilikdən xilas etməsi kimi saxta konsepsiyaları ifşa edir. Əvəzində, XIX əsrin sonu XX əsrin əvvəllərində milliləşmə proseslərini keçirən, müxtəlif yollar, ideyalar, ideallar axtarışında özünü tanımağa başlayan millətin obrazını yaradırdı. Geniş oxucu auditoriyalarına yönəlmiş ədəbiyyatın bu missiyası, vahid "sovet xalqı" formalaşdırmaq niyyətində olan sosrealizmin prinsiplərini danır, özünəxas tarixi inkişaf yolu, tərcümeyi-halı, taleyi olan Azərbaycan xalqının milli özünüdərk prosesini əks etdirirdi.

**Müharibə həqiqətlərinin millilik prizmasından bədii interpretasiyası.** Mülayimləşmə dövründə milli özünüdərk proseslərinə rəvac verən motivlərdən biri də II Dünya müharibəsi mövzusunun ədəbiyyatda yenidən, milli həqiqətlər fonunda inikası və təsviridir.

Ötən əsrin 30-cu illərində kəskin sinfi mübarizə ideologiyası və repressiya dalğalarından sonra başlanan II Dünya müharibəsi sanki xalqı birliyə səfərbər

etmiş, Hitler faşizminə qarşı mübarizə sovet ölkəsində Böyük Vətən müharibəsi adını almışdı. Azərbaycan xalqı da digər xalqlarla birgə bu müharibədə vətənin müdafiəsinə qalxmış, bütün cəbhələrdə hünər və qəhrəmanlıqla iştirak etmiş, şücaət göstərmişdir. 1940-cı illərdə, müharibə gedişində və faşizm üzərində qələbədən sonra ədəbiyyat müharibə mövzusunu yalnız müsbət pafosla, qələbəyə inam, sovet ordusunun sarsılmazlığı, qəhrəmanlıq və vətənpərvərlik, ön cəbhə ilə arxa cəbhənin vəhdəti, sovet xalqlarının birliyi və xalqlar dostluğu motivlərində əks etdirirdi. Hətta Azərbaycan yazıçısı Əbülhəsən bu illərdə "Müharibə" adı ilə yazdığı (1947) roman-epopeyasının adını sonrakı illərdə "Dostluq qalası" (1960) adına dəyişdirmişdir.

Mülayimləşmə dövrü müharibə həqiqətlərinə də yenidən baxışı təmin etdi. İstər ön cəbhə, istərsə də arxa cəbhənin gerçəkləri qələmə alınmağa başlanıldı. Bu zaman hər bir milli ədəbiyyat faşizm üzərində qələbədə, məhz öz xalqının payını, hünərini, şücaətlərini, eyni zamanda çəkdiyi ağrı və əzabları təsvir etməyə, qabartmağa çalışdı. İmran Qasımov və Həsən Seyidbəylinin "Uzaq sahillərdə" (1954), Süleyman Vəliyevin "Mübahisəli şəhər" (1957), Hüseyn Abbaszadənin "General" (1961), İsa Hüseynovun "Tütək səsi" (1965), "Saz" (1971), İsmayıl Şıxlının "Cəbhə yolları" (1985) və s. əsərlər II Dünya müharibəsində Azərbaycan xalqının iştirakını yeni tərzdə, Azərbaycançılıq mövqeyindən təmsil edən bədii nümunələrdir.

İ.Qasımov və H.Seyidbəylinin "Uzaq sahillərdə", S.Vəliyevin "Mübahisəli şəhər" romanları ilk dəfə olaraq azərbaycanlıların sovet ölkəsindən uzaqda, Avropada beynəlxalq antifaşist hərəkatında iştirakını əks etdirirdi. Sənədli faktlara əsaslanmaqla Azərbaycan oğullarının İtaliyada və Yuqoslaviyada partizan dəstələrində qeyri-adi hünərlər, qəhrəmanlıqlar göstərməsi milli xarakterin dünya kontekstində görünməsinə səbəb olur, qürur doğururdu. Mehdi Hüseynzadənin Mixaylo təxəllüsü ilə əfsanəvi qəhrəman kimi tanınması "Uzaq sahillərdə" əsərindən və eyniadlı filmin (rejissoru: Tofiq Tağızadə) ekranlara çıxmasından sonra Azərbaycan cəmiyyətində geniş populyarlıq qazanır.

"Mübahisəli şəhər" əsəri sosrealizmin tələblərinə uyğun beynəlmiləlçilik prinsipləri ilə qələmə alınsa da, avtobioqrafik materiallara əsaslanır. Romanın qəhrəmanı, Yuqoslaviyanın Triyest şəhərində faşizmə qarşı müqavimət qüvvələrinin sıralarında vuruşan Aslanın prototiplərindən biri yazıçı özüdür. Xatirələrində Süleyman Vəliyev İtaliyanın "Livorno əyalətində Kastalina rayonunun Vitalbo dağları ətrafında Cüzeppe Haribaldi adına partizan dəstəsi"ndə [Vəliyev, 1959:71] vuruşduğunu, eyni zamanda Triqlava dağları və

Triyest şəhəri ətrafında döyüşlərdə azərbaycanlı partizanlarla əlaqə saxladığını qeyd etmişdir. Yazıçı əsas qəhrəmanının müxtəlif xalqların nümayəndələri ilə bərabər faşizmə qarşı döyüşlərdə iştirakını ümumiləşdirməklə azadlıq uğrunda mübarizəni ön plana çəkir: *"Ancaq yadellilərin mürtəce qəsbkarları əsrlər boyu nə qədər səy etmişlərsə, azadlıqsevən xalqların qəlbini özlərinə əsir edə bilməmişlər..."* [Vəliyev, 1962:47]. Romanda azərbaycanlı surətlərinin geniş yer alması yazıçı ideyasının azərbaycanlıların beynəlxalq müqavimət hərəkatında iştirakı və rolunu vurğulamaq olduğunu göstərir.

II Dünya müharibəsində Azərbaycan insanının qəhrəmanlıq salnaməsindən bəhs edərkən, ilk növbədə, Hüseyn Abbaszadənin müharibə qəhrəmanı Həzi Aslanovun həyatı və döyüş yoluna həsr etdiyi "General" romanı (1961) xatırlanır. Romanda Böyük Vətən müharibəsinin daha bir əfsanəvi azərbaycanlı qəhrəmanı kimi tanınan, tank diviziyası komandiri Həzi Aslanovun mərd, cəsur, sərkərdə obrazı yaradılmışdır. İstər "Uzaq sahillərdə" əsərinin ekranlaşdırılması (1958), istərsə də "General" romanı əsasında çəkilən "Sizi dünyalar qədər sevirdim" adlı film (1985) 1960-1980-ci illərdə gənc nəsillərin sadəcə mücərrəd vətənsevərlik, qəhrəmanlıq ruhunda deyil, eyni zamanda milli qəhrəmanların simasında azərbaycançılıq sevgisi və əqidəsi ilə yetişməsində pozitiv rol oynamışdır.

Müharibə həqiqətləri yalnız qəhrəmanlıq səhifələri deyil, bütün ağrı-acıları, çətinlikləri, sərt gerçəklikləri ilə poeziyada Rəsul Rzanın "1418", Bəxtiyar Vahabzadənin "416" poemalarında olduğu kimi, İsmayıl Şıxlının "Cəbhə yolları"nda da yeni baxış bucağından təsvir olunmuşdur. Yazıçı iştirakçısı olduğu müharibənin 1418 gününü yalnız qalib ordunun zəfər yürüşlərində yox, əsgər nəzərləri ilə, səngərlərdən səngərlərə keçir. Bu isə əsl vətəndən – Azərbaycandan uzaqda baş verən Vətən müharibəsinin ziddiyyətlərini görməyə imkan verir. Təsadüfi deyil ki, əsl Vətən müharibəsini Azərbaycan xalqı öz torpaqları qəsb olunanda, Qarabağ müharibəsində yaşadı və bu zaman bədii nəsrin yaddaşı müharibə həqiqətlərini bütün boyaları ilə qələmə almaqda yazıçıların köməyinə gəldi.

Müharibənin sərt üzü ön cəbhə təsvirlərində olduğu kimi, arxa cəbhədən söz açan əsərlərdə də yeni rakursdan özəksini tapdı. İsa Hüseynovun "Saz" və "Tütək səsi" povestləri müharibə illərinin Azərbaycan kəndini real boyalarla göstərməklə, milli həyatın daha bir tarixi səhifəsinə dair ümumiləşdirici münasibəti ortaya qoydu. Müharibə ayrı-ayrı insanların həyatında olduğu kimi, bütövlükdə Azərbaycan xalqının mənəvi dünyasında da böyük bir imtahan, sınaq

olur. Müharibə dövrünün sərt qanunları ilə sovet rejimi daha da amansız olmuş, xalqın başının üstündə qılınc kəsilmişdir. Təsadüfi deyil ki, hər iki əsərdə hökuməti təmsil edən kənd soveti sədrinin təxəllüsü Qılınc Qurbandır. Kişilərin əksəriyyətinin cəbhəyə yollandığı, təsərrüfatın ağırlığının qadınların çiyninə düşdüyü kənddə müvazinəti qoruyub-saxlamaq, məhz Qılınc Qurbanın üzərinə düşür. Lakin o, insanlara həddən artıq şübhə ilə yanaşır, hər kəsdə bir günah axtarır. "Saz" povestində tamamən günahsız, axsaq olduğu üçün cəbhəyə çağırılmamış feldşer Hacıdan, guya məktubları muştuluq almaq üçün gizləyən gənc poçtalyon qız Millidən, "Tütək səsi" povestində əsgər ailəsinə soxulan Cəbrayıldan şübhələnməsi, onları həbsə almaq cəhdi repressiv mühitin simvolik mahiyyətini əks etdirir.

Rejimin sərt üzünə qənşər "Saz" povestində el ağsaqqalı İsfəndiyar kişinin daha yumşaq siyasəti, insana inam fəlsəfəsi, humanist yanaşması durur. İsfəndiyar kişinin iki oğlu cəbhədə vuruşur, o mehrini zəhmətkeş, xəstəliklərin kökünü kəsmək üçün çarpışan, qamışlıqları məhv edən feldşer Hacıya salmışdır. Qılınc Qurbanın guya feldşerin onun gəlinlərində gözü olması barəsində şübhələrinə inanmır və Hacını Qılınc Qurbanın saldığı "dustaq damı" deyilən daxmadan azad edir: *"Gör bir məni nə işə saldı, sağ olmuş! Oğlumsanmı, qardaşımsanmı, nəyimsən ki, namusumu qoruyursan sən mənim, a sağ olmuş!.. Gör bir necə biabır oldum" – İsfəndiyar kişi qovrulurdu"* [Muğanna, 2009:72]. İsfəndiyar kişi Millinin əsgər məktublarını gizlətməsi əhvalatını da yaxın buraxmır. Əsərin sonunda bu məktubların, məhz "qara kağız"lar olması, içində İsfəndiyar kişinin hər iki oğlunun ölüm xəbərinin də olması Qılınc Qurbanın nə qədər yanıldığını, İsfəndiyar kişinin insanlara inam fəlsəfəsinin üstünlüyünü təsdiq edir.

Beləliklə, hər iki əsərdə insanlara qarşı mənəvi terror, şübhəçilik, təzyiq siyasətinə qarşı xalq mənəviyyatının, milli mental dəyərlərin durduğu və sonda qalib gəlməsinin şahidi oluruq. Hər iki əsərdə xalqın sızlayan ağrılarının atributu kimi səslənən "tütək səsi" və ağır müharibə imtahanından mərd, dəyanətlə, mətanətlə çıxmağın simvolik ifadəsi olan "saz" detalları milli-mənəvi dəyərləri təcəssüm etdirir. Bu povestlərin motivləri əsasında çəkilən "Tütək səsi" (1975) filmi (rejissoru Rasim Ocaqov, ssenarisi İsa Hüseynov) müharibə illərinin həqiqətlərini geniş auditoriyaya çıxarmaqla, ən çətin sınaqlardan çıxmış Azərbaycan cəmiyyətini milli-mənəvi dəyərlər, mental xüsusiyyətlər ətrafında səfərbər etmişdir.

1960-1980-ci illərin nəsr və dramaturgiyasının ortaya qoyduğu əsərlər Azərbaycan xalqının yaxın tarixinə yeni nəzərlərlə baxmağa sövq etmişdir. Rəsmi ideologiyaya və bunun təzahürü olan sosialist realizminə rəğmən, nəsr və dram əsərlərində Azərbaycan xalqının tarixinə obyektiv baxış, iki yüz il ərzində rus işğalı və asılılığı altında yaşayan millətin mübarizə və müqavimətlərlə dolu gerçək həyatı, mədəni-mənəvi obrazı yerini alırdı. Rəsmi ideologiyanın təbliğatına rəğmən, Azərbaycanın XIX əsrin əvvəllərində heç də Rusiya tərkibinə könüllü daxil olmadığı, Rusiyanın Qafqazda mədəniləşdirici rolunun bir mif olduğu, iki əsr ərzində Azərbaycan xalqının faciəli bir tale yaşaması, məhz istedadlı, passionar övladları, tarixi şəxsiyyətləri sayəsində tarixin dolambaclarından çıxması, maarifçilik hərəkatı, milliləşmə prosesləri, sovet hakimiyyətinin qurulması, repressiya və müharibə həqiqətlərinin ədəbiyyatda inikası bütövlükdə millilik amilinin, milli təfəkkürün güclənməsinə rəvac verdi. Milli xarakterin, mədəni-mənəvi dəyərlərin, xalqın adət-ənənə və rituallarının, tarixi yaddaşı və etno-coğrafiyasının bədii əsərlərdə təsviri azərbaycançılıq məfkurəsinin möhkəmlənməsinə, ön sıraya çıxmasına səbəb oldu.

**Nəticə/Conclusion**

Poststalinizm dövrü Azərbaycan nəsri və dramaturgiyasında yeni mövzu və problematika, o cümlədən maarifçilik hərəkatının, milliləşmə proseslərinin, sovet dövrü həqiqətlərinin yeni prizmalardan təqdim olunması azərbaycançılıq mövqeyini gücləndirdi. Ədəbiyyat buna milli həyatın reallıqlarını, dramatik və faciəvi taleləri, müharibə illərinin sərt gerçəkliklərini, bu gerçəklər fonunda formalaşan milli insan xarakterlərini təsvir etməklə nail olmuşdur.

Araşdırmada göstərildiyi kimi, Mir Cəlal, İsmayıl Şıxlı, Anar, İsa Hüseynov, Hüseyn Abbaszadə və başqa müəlliflərin əsərləri milli tarixin uzaq və yaxın keçmişinə bədii təhlil və interpretasiya baxımından yeni yanaşmalar gətirdi. Yazıçılar maarifçilik ideyalarının aktuallığına önəm verərək, eyni zamanda milli taleyin qəhrəmanlıq və faciə qatlarını əsərlərində göstərə bildilər. Müharibə mövzusu Azərbaycan xalqının qəhrəmanlıq salnaməsini, əzab və sınaqlarını, həmçinin milli-mənəvi dəyərlərinin davamlılığını əks etdirdi.

Ötən əsrin 60-80-ci illərinin nəsr və dramaturgiyası sovet ideologiyasının Azərbaycanda formalaşdırmağa çalışdığı tarixi saxtakarlıqlara qarşı çıxaraq xalqımızın əsl taleyini və milli kimliyini bədii şəkildə göstərmiş, maarifçiliyin, milliləşmənin əhəmiyyətini ön plana çəkmişdir. Dövrün ədəbi nümunələri ictimai-siyasi proseslər, müharibə və repressiya, sovet hökumətinin ədalətsiz münasibəti fonunda Azərbaycan xalqının milli özünüdərki və milli təfəkkürünün